KASPİ GLOBAL
Xaricdə Təhsil Xidmətləri

**Tarix:** 29 dekabr 2023 **Versiya:** 1.1

# Litvada təhsil üçün müvəqqəti yaşamaq icazəsinə müraciət qaydaları

## ƏSAS SƏNƏDLƏR

1. **Pasport**
   - Xarici pasportun bitmə tarixinə minimum 18 (TRP-nin son günü + 6 ay) ay qalmalıdır;
   - 1 ədəd surəti (əsas, vizalar, ölkələrə giriş-çıxış möhürləri olan səhifələr) çıxarılmalıdır.
2. **Rəngli fotoşəkil**
   - 1 ədəd tələb olunur;
   - Ölçüləri 3.5×4.5 sm, ağ fonda və biometrik olmalıdır;
   - Ən köhnə halda 6 ay ərzində çəkilməlidir.
3. **Tibbi sığorta**
   - Sığorta məbləği 30.000 avro hesablanmalıdır;
   - Bütün Şengen ölkələri üçün (bax: Şengen zona) keçərli olmalıdır.
4. **Maliyyə dəstəyinin sübutu**
   - Maliyyə sənədləri qeyd olunan variantların biri (və ya bir neçəsi) ilə sübut oluna bilər:
     - təqaüd qazanılması barədə məktubla;
     - sponsor tərəfindən verilmiş zəmanət məktubu ilə;
     - bank hesabı və həmin hesaba minimal məbləği (2023-cü il üçün minimum 5,880 avro) mədaxil etməklə;
     - müntəzəm gəlirləri sübut edən digər (məsələn, daşınmaz əmlak kirayəsi, səhm gəlirləri və s.) sənədlərlə.
   - İngilis dilinə notarial tərcümə olunmalıdır.
5. **Vasitəçilik məktubunun nömrəsi**
   - MIGRIS sistemində qeydiyyat üçün tələbəyə təqdim olunmuş vasitəçilik məktubunun nömrəsi.
6. **Məhkumsuzluq barədə arayış**
   - ASAN xidmət mərkəzindən əldə olunmalı və 6 aydan köhnə olmamalıdır;
   - 5 saylı ASAN xidmət mərkəzində Xarici işlər nazirliyi (Konsulluq xidmətləri) tərəfindən apostil şəhadətnaməsi ilə təmin olunmalıdır;
   - İngilis dilinə notarial tərcümə olunmalıdır.
7. **18 yaşına çatmamış tələbələr üçün**
   - Tələbənin doğum haqqında şəhadətnaməsi
     - Ədliyyə nazirliyi tərəfindən apostil şəhadətnaməsi ilə təmin olunmalıdır;
     - İngilis dilinə notarial tərcümə olunmalıdır;
     - 1 ədəd sadə surəti çıxarılmalıdır.
   - Tələbənin xaricə sərbəst şəkildə səfər etməsi və maddi öhdəliyi üçün ərizə
     - Tələbənin xaricə sərbəst şəkildə səfər etməsi üçün ərizə hər iki valideyn tərəfindən notarial qaydada verilməlidir;
     - Maddi öhdəlik ərizəsi hər hansı bir valideyn tərəfindən notarial qaydada verilməlidir;
     - İngilis dilinə birinə notarial tərcümə olunmalıdır;
     - 1 ədəd sadə surəti çıxarılmalıdır.

## MÜRACİƏT QAYDASI

1. https://www.migracija.lt/app/visit-reserve keçidində sənədlər sistemə yüklənilərək TRP üçün ilkin müraciət olunmalıdır;
2. İlkin müraciət miqrasiya xidməti tərəfindən təsdiq olunduqdan sonra sənədlər original şəkildə VFS Global şirkətinə təqdim olunmalıdır;

3. https://visa.vfsglobal.com/aze/en/ltp/login keçidindən original sənədlərin VFS Globala təqdim olunması üçün görüş günü seçilməlidir;
4. Original sənədlər VFS Global şirkətinə təqdim olunduqdan 5 gün ərzində Litvanın miqrasiya əməkdaşları ilə onlayn formada müsahibə təşkil olunur.

## RÜSUMLAR

- Müvəqqəti yaşayış icazəsi üçün müraciət rüsumu 80 avro, bankın rüsumu 35 avro, VFS Globalın rüsumu isə 75 manatdır.

## QEYD

- Müraciət zamanı VFS Global şirkətində şəxsi iştirak tələb olunur;
- Litvanın miqrasiya orqanları əlavə sənədləri tələb etmək hüququnu özündə saxlayır;
- TRP müraciətininin cavablandırılması üçün müddət 2 aya qədər çəkə bilər;
- TRP üçün sənədlərin tam şəkildə təqdimatı müraciətin müsbət cavablandırılacağına zəmanət vermir;
- TRP üçün rüsumlar istənilən halda geri qaytarılmır.